# SƏNƏTŞÜNASLIQ

*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 255-262* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.255*

## Türkdilli xalqların dini mahnı ənənəsində "Əhli-beyt" məzmunlu musiqili-poetik janrlar

**Akif Quliyev**
Azərbaycan Milli Konservatoriyası
Əməkdar incəsənət xadimi
Professor
E-mail: guliyev_akif@mail.ru

**Əfsanə Babayeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: afsanababayeva@mail.ru
ORCID iD: https://orcid.org/0009-0000-2631-7514

***Xülasə.*** Məqalədə türkdilli xalqların ənənəvi musiqi mədəniyyətində "Əhli-beyt" məzmununu əks etdirən dini musiqili-poetik janrların ümumiliyinə, ənənələrin uyğunluğuna dair məsələlər ilk dəfə olaraq musiqi-tarixi aspektdə şərh edilir. Burada müsəlman dünyasının ayrılmaz tərkib hissəsini təşkil edən türldilli xalqların (əsasən türk və Azərbaycan) dini və xalq yaradıcılığı arasında orta mövqedə duran "Əhli-beyt" məzmunlu musiqili-poetik janrların özünəməxsusluğunun göstərilməsi işin elmi yeniliyini şərtləndirir. "Əhli-beyt" mahnı ənənəsinin eyni soykökünə malik, lakin müxtəlif coğrafi-mədəni mühitlərə aid türkdilli xalqların musiqi mədəniyyətində təzahürü onların həm ümumi, universal, həm də fərqli, lokal xüsusiyyətlərini aşkarlamağa imkan verir. Belə ki, Azərbaycan musiqişünaslığında prioritet istiqamət olan musiqi türkologiyasının metodoloji əsaslarına uyğun olaraq müqayisəli təhlil metodu vasitəsilə aparılan araşdırma problemin öyrənilməsində vacib cəhətlərin müəyyənləşdirilməsinə kömək edir.
Məqalədə mərsiyə, ilahi, nət, mövlud və digər dini musiqili-poetik janrların türkdilli xalqların dini musiqi mədəniyyətində fəaliyyətinin özünəməxsusluğuna müqayisəli aspektdə baxılar. Dini musiqili-poetik janrlarda vahid ideyanı, nişanı ifadə edən "Əhli - beyt" anlamının - yəni Məhəmməd Peyğəmbər və onun ailə üzvlərinin mədhi və müsibətinin bədii ifadəsinin müxtəlif mədəni mühitlərdə fərqli və uyğun cəhətlərə malik olduğu müəyyənləşdirilir. Belə ki, vahid kökə malik türkdilli xalqların mədəniyyətində musiqili-poetik janrların poetik məzmununun uyğun cəhətlərə malik olmasına baxmayaraq, onların musiqi ifadə vasitələrində fərqliliyin aşkar edilməsi işin əsas elmi nəticəsini təşkil edir. Musiqili-poetik janrların regional özünəməxsusluğunun aşkarlanmasında başlıca amil kimi ladintonasiya əsasın (makam və angemiton) göstərilməsi xüsusi əhəmiyyətə malikdir. Məhz lad əsası regional müxtəlifliyin və özünəməxsusluğun mühüm göstəricisi olaraq yerli mühitin musiqi ənənəsi ilə sıx bağlılığını bildirir.
Türkdilli xalqların dini-mədəni ənənəsində "Əhli-beyt" məzmunlu musiqili-poetik janrların müqayisəli öyrənilməsi bu qohum xalqların mədəni əlaqələrinin dərindən dərk edilməsinə və bu aspektdə daha geniş tədqiqatların aparılmasına imkan verən tətbiqi əhəmiyyətə malikdir.
***Açar sözlər:*** *Musiqili-poetik janr, mahnı, qəsidə, mərsiyə, ilahi, nət, mədh, "Əhli-beyt"*

**Məqalə tarixçəsi:** göndərilib – 20.04.2026; qəbul edilib – 18.05.2026

# Musical and poetic genres with the content of "Ahli-bayt" in the religious song tradition of Turkic-speaking peoples

**Akif Guliyev**
**Afsana Babayeva**

***Abstract.*** The article is the first to comment on the commonality of religious musical-poetic genres reflecting the content of "Ahli-bayt" in the traditional musical culture of Turkic-speaking peoples, and the compatibility of traditions in terms of music and history. Here, the scientific novelty of the work is determined by the fact that the musical-poetic genres with the content of "Ahli-bayt" stand in the middle between the religious and folk creativity of Turkic-speaking peoples (mainly Turks and Azerbaijanis), which constitute an integral part of the Muslim world. The manifestation of the "Ahli-bayt" song tradition in the musical culture of Turkic-speaking peoples with the same roots but belonging to different geographical and cultural environments allows us to reveal both their common, universal and different, local characteristics. Thus, the research conducted using the comparative analysis method in accordance with the methodological foundations of musical Turkology, which is a priority direction in Azerbaijani musicology, helps to show important aspects in studying the problem.

The article examines the specific nature of the activities of lament, hymn, nat, mavlud and other religious musical-poetic genres in the religious musical culture of Turkic-speaking peoples in a comparative aspect. It is determined that the meaning of "Ahli - beyt", which expresses a single idea and sign in religious musical-poetic genres - that is, the artistic expression of the praise and sorrow of the Prophet Muhammad and his family members - has different and compatible features in different cultural environments. Thus, despite the fact that the poetic content of musical-poetic genres in the culture of Turkic-speaking peoples with a single origin has compatible features, the main scientific result of the work is the discovery of differences in their musical means of expression. The indication of the ladintonation basis (makam and angemiton) as the main factor in revealing the regional specificity of musical-poetic genres is of particular importance. It is precisely the lad basis, as an important indicator of regional diversity and specificity, indicates the close connection with the musical tradition of the local environment.

The comparative study of musical and poetic genres with "Ahli-bayt" content in the religious and cultural tradition of Turkic-speaking peoples has practical significance, allowing for a deep understanding of the cultural ties of these related peoples and for conducting more extensive research in this aspect.

***Keywords:*** *Musical-poetic genre, song, qasidah, marsiya, ilahi, nat, medh, "Ahli-bayt"*

**Article history:** received – 20.04.2026; accepted − 18.05.2026

## Giriş / *Introduction*

İslam dünyasının ayrılmaz tərkib hissəsi olan türkdilli xalqlar əsrlər boyu müsəlman mədəniyyətinin bütün zənginliyini öz bədii yaradıcılığında ifadə etdirmişlər. Müsəlman bədii irsi türkdilli xalqların ədəbiyyatına, poeziyasına, o cümlədən, incəsənətinə böyük təsir göstərmişdir. Bu, onların dini mərasimlərində, xüsusilə də, musiqi-poetik janrlarında parlaq əksini tapmışdır. Allaha və onun Rəsuluna - Məhəmməd Peyğəmbərə, onun ailə üzvlərinə - "Əhli-beyt"ə ("ev əhlinə") olan dərin sevginin, ilahi eşqin, duanın, mədhin və kədərin, hüznün ifadə edilməsi müsəlman mədəniyyətinin, müxtəlif formalarda təzahür edən musiqili-poetik janrların əsas mövzusu olmuşdur.

"Əhli-beyt" kəlməsi Həzrət Peyğəmbəri sevən, ona iman gətirən və onun yolunu gedən hər bir müsəlman üçün parlaq, əzizlənən və əbədi bir kəramətin nişanəsi olan müqəddəs məfhumdur. Bu anlayış İslam Peyğəmbərinin ailəsinə (Məhəmməd Peyğəmbər, Həzrət Əli, Həzrət Fatimeyi-Zəhra, Həzrət Həsən, Həzrət Hüseyn və qalan itrəti-Rəsul), yani xüsusi şəxslərə aid edilir.

"Əhli-beyt" - müsəlman mədəniyyətindəelm, əxlaq, şərəf və həqiqət yolunda dönməzliyin, islamın elm və silah ilə müdafiəsinin, zül-

mə, ədalətsizliyə qarşı mübarizənin misilsiz rəmzidir. Əsrlər boyu böyük şairlər bu obrazlara şeirlər, qəsidələr həsr etmiş, onların mətni musiqili sədalarda səsləndirilmişdir.

Türkdilli xalqların ənənəvi musiqisində geniş yayılan, onların mənəvi arzu və istəklərini ifadə edən belə musiqili-poetik janrların (mərsiyə, ilahi, nət, münacat, mövlud oxumaları və s.) fəaliyyətinə müqayisəli şəkildə nəzər yetirməklə qohum xalqlalrın dini ənənəsində və ictimai-siyasi həyatında bir sıra uyğun və eyni zamanda, fərqli proseslərin baş verməsini müşahidə etmək mümkünləşir. Belə bir yanaşma eyni köklü qohum xalqların orta əsr ümummüsəlman mədəniyyəti kontekstində "Əhli-beyt" məzmunlu musiqili-poetik janrların təşəkkülü və inkişafı prosesini izləməyə, onların yerini və rolunu müəyyənləşdirməyə, ümumi və fərqli cəhətlərini aşkarlanırmağa imkan verir.

## Əsas hissə / *Main part*

Türkdilli xalqların mədəni əlaqələrinin tarixi qədin və dərindir. Müxtəlif tarixi dövrlərdə türkdilli xalqlar arasında mədəni əlaqələrin möhkəmlənməsinə dini ənənələrlə bərabər, ümummüsəlman mədəniyyətinin müxtəlif aspektlərinin böyük rolu olmuşdur. Türkdilli xalqların mədəni həyatının vahid dini və mənəvi əsaslar üzərində inkişafı musiqili-poetik janrların eyniliyini və uyğunluğunu da şərtləndirmişdir.

"Əhli-beyt" məzmunlu musiqili-poetik janrlar türkdilli xalqların dini mərasim sistemində əsasən iki fərqli ayinlərində: "Əhli-beyt"in mövludu (doğum günü) və faciəvi ölümü, müsibəti (*Məhərrəmlik, Aşura, Təziyə*) qeyd olunan mərasimlərdə istifadə edilir.

1. **Dini-matəm mərasimlərində musiqili-poetik janrlar.**

Dini musiqili-poetik janrlar arasında mühüm təsiredici funksiya daşıyan mərsiyə - dəbdəbəli, təntənəli üslubu ilə seçilən qəsidənin bir növü olaraq - müqəddəs şəxslərin və xüsusən də, "Əhli beyt" üzvlərinin (İmam Əlinin övladlarının – Hüseynin, Hüseynin oğlu Əli Əkbərin, Hüseynin qardaşı Həsənin oğlu Qasimin və başqalarının) Kərbəlada 860-ci ildə şəhid olması ilə bağlı yazılan şeir növü kimi geniş yayılmışdır. Islamın "Məhərrəmlik" matəm mərasimlərində onlara həsr edilən çox sayda mərsiyə nümunələri oxunur.

Mərsiyə - klassik şeir janrı kimi orta əsrlərdə, xüsusən də, Səfəvilər və Osmanilər dövründə Azərbaycan və türk musiqi ənənəsində önəmli yer tutmağa başlamışdır.

Bu janrın xalq arasında yayılmasında və sevilməsində dil faktoru böyük əhəmiyyət kəsb edirdi. "*Məlum olduğu kimi, islam mədəniyyətində etnik-regional elementin güclənməsi prosesi gec orta əsrlərdə (XIV-XIX) baş vermişdir. Bu dövr Yaxın və Orta Şərq xalqlarının, o cümlədən, Azərbaycanın və bir çox türkdilli xalqların bədii mədəniyyətində ümummüsəlman incəsənətinin, bədii ənənələrin fərdiləşməsi ilə xarakterizə edilir. Tədricən etnik regionların formalaşması prosesi sürətləndikcə uzun əsrlər boyu hakim olan universal bədii-estetik prinsiplərin də milli-etnik əlamətlərlə zənginləşməsi güclənir*" [Babayeva: 2023, s.144].

Məhz həmin dövrlərdə mərsiyə janrında, ilk öncə, poetik janr kimi XII-XIII əsrlərdə yaranmağa başlasa da, yalnız XVIII-XIX əsrlərdə Azərbaycan və türk bədii irsində, xüsusilə, böyük nailiyyətlər əldə edilir. Dahi Məhəmməd Füzuli şiə şairi kimi XVI əsrdə türkcə ilk mərsiyəni ***tərkibbənd*** formasında yazır. Azərbaycanda mərsiyə janrının ən yüksək zirvəyə çatmasında XIX əsr Azərbaycan şairlərindən - Şəms Səttar Ərdəbilinin, Hacı Əbülhəsən Racinin, Mirzə Məhəmməd Təqi Qumri Dərbəndinin, Hacı Məhəmməd Dilxunun, Hacı Rza Sərraf Təbrizinin və b. bu janrda yazdıqları şeirləri mühüm rol oynayır. "Şairlər tacı" adlanan digər mərsiyə şairi – Hacı Əbbasqulu Yəhyəvi Ərdəbili isə Azərbaycan mərsiyə ədəbiyyatında yeni məktəb yaradır. Daha sonralar Həsən bəy Hadi, Məşədi Əyyub Baki, Molla Əli Xəlifə, Molla Məhəmməd Qazi, Məhəmməd Əli bəy Məxfi, Mehdi Qulu xan, Mirzə İbrahim Səba, Cəfərquluxan Cavanşir, Molla Hacı Nəcəfqulu Qarabaği və başqaları öz mərsiyələri ilə məşhurlaşır [Köçərli: 1978, səh.145]. Məhz Azərbaycan və türk dilində yazılan mərsiyələr janrın musiqi dilinə, xüsusilə də, onun melodik başlanğıcına və ritmik quruluşuna güclü təsir göstərir.

XIX əsr Azərbaycan şairlərinin mərsiyələri təkcə Azərbaycanda deyil, həmçinin, İranda, Qafqazın türkdilli əhalisi arasında, hətta Orta Asiyada da geniş yayılmış və dillər əzbəri olmuşdur.

Mərsiyə janrının Anadoluda ilk nümunələri XIII əsrə (C.Rumi) aid olsa da, XV-XVI əsrlərdə ən yüksək zirvəsinə çatmışdır. Ələvilik və Bektaşilik təriqətləri ilə bağlı türk dini-təsəvvüf ədəbiyyatında Kərbəla hadisələrinə həsr olunan "Əhli-beyt" məzmunlu çox sayda poetik əsərlər: *mərsiyə, məsnəvi, qəsidə, qəzəl, tərğibənd, tərkibbənd, mürəbba, müxəmməs, rübai, tuyuğ, ilahi* və b. mühüm yer tutmuşdur [Arslan və b.: 2009, səh.50].

Türk tədqiqatçısı Nuri Özcan öz araşdırmasında türk dini musiqisində mərsiyə ənənəsinin tarixi-mədəni inkişafını şərh edərkən dini-təsəvvüf ədəbiyyatında "Əhli-beyt" sevgisinin daha çox Həzrəti Hüseyn ilə ailə üzvlərinin və 70 tərəfdarının şəhadətinə həsr edilən mərsiyələrdə əks olunduğunu qeyd edir [Nuri: 2014, s.81]. Tədqiqatçı bu mərsiyələrdə tərənnüm olunan Kərbəla hadisələrinin məhərrəm ayında baş verdiyinə görə onların "*muhərrəmiyyə"*, "*Əli əba mərsiyələri", "Kərbəla mərsiyələri*" kimi də adlandırıldığını bildirir.Tədqiqatçı türk dini ədəbiyyatında bu növ mərsiyələrin bir çox türk şairləri (Mehmed Əfəndi, Füzuli, Musa Kazım Paşa və b.) tərəfindən yazıldığını diqqətə çatdırır.

Mərsiyə musiqili-poetik janrında bir tərəfdən, klassik Şərq bədii mədəniyyətinin əlamətləri (klassik poeziyanın normaları, əruzun qanunauyğunluqları), digər tərəfdən, xalq musiqisi və poeziyasının (heca vəzni) etnolokal xüsusiyyətləri eyni dərəcədə çıxış etdiyinə görə onları unikal edir. Bu oxumaların məhz özünəməxsus məqam əsası və poetik dili onları digər qohum (qonşu) etnomədəniyyətə aid musiqi ənənəsindən fərqləndirir. Məhz məqam əsası janrın musiqi dilinin etnolokal özünəməxsusluğunu bildirir. Azərbaycan və türk mərsiyə nümunələrinin məqam əsasının müqayisəli təhlili məhz onların uyğun – qohum musiqi dilinə malik olduğunu göstərməyə kömək edir. Azərbaycanda ifa edilən mərsiyələrin əsaslandığı segah, çahargah, rast, şur məqamlarına analoji olaraq türk mərsiyələrinin əsaslandığı makamlar olduqca geniş və müxtəlifdir [Babayeva:2023, s.135]. Bunu biz təkcə ***Mehmet Yalçin Yılmazın toplayıb tərtib etdiyi və 28 adda makama (bəstənigar, bayatı, dügah, hicaz, hüseyni, hüzzal, mahur, rast, saba, segah və s.) əsaslanan 100 mərsiyənin nümunəsində aydın görürük [Mehmet: 2006, s.62-164].***

Türkiyədə Kərbəla hadisələri ilə bağlı və Əhli-beyt s evgisini əks etdirən və məhərrəm ayında oxunan mərsiyələr çox vaxt *ilahi* adlanır [Mehmet:2006, səh.62-164].

**2.İlahi-türkdilli xalqların dini mahnı ənənəsində musiqili-poetik janr kimi.**

Türk dini musiqisində xüsusi yer tutan Məhəmməd Peyğəmbərin (ə.s.) və "Əhli beyt"in vəsfinə, mədhinə (*nət və teşvih*) həsr edilmiş ilahi poetik janrının yaranması və formalaşması Osmanlı sufi-şairi Yunus Əmrənin (XIII-XIV ə.) adı ilə bağlıdır. İcra şəraitindən və həsr olunduğu mövzudan asılı olaraq ilahilərin adları da dəyişir: Qurban, Ramazan, Məhərrəm ilahiləri ilə yanaşı, Mövlud ilahiləri (Məhəmməd Peyğəmbərin, Həzrət Əlinin, Fatimeyi Zəhranın və digər Əhli-Beyt üzvlərinin mövluduna aid) də önəm daşıyır [Demirçi:2017]. Bektaşi təriqətinə məxsus ilahilər isə «nəfəs» adlanır.

*Onu da qeyd edək ki, türk dini musiqisində "Əhli-beyt" məzmunlu musiqili-poetik formalar arasında ilahi - ən çox ifa edilən janrdır. Kiçik həcmli bu formaları tədqiqatçılar məhz «dini mahnı» kimi də təqdim edirlər. Onların poetik mətnləri türk dini təsəvvüf şairlərinin: başda Yunus Əmrə olmaqla Niyazi Misrinin (XVII), Nasuhinin (XVII), Seyfullah Seyfinin (XVII), İbrahim Haqqinin (XVIII), Osman Şəmsin (XIX) və başqalarının şeirlərinə əsaslanır. Bəzi İlahilər müəyyən bir təriqətə, məsələn, Rifai, Nəqşbəndi, Xəlvəti, Gülşəni və b. aid olduğundan yalnız onların məkanında oxunur. Bunların əksəriyyətində həmin təriqətin inancları tərənnüm edilir və onun uluları təriflənir. Ümumi xarakterli, yəni sadəcə dini məzmunlu İlahilər də var ki, onlar məktəb və məscidlərdə oxuna bilər. Hicri ilinin müəyyən əlamətdar ayında oxunan İlahilər də mövcuddur. Məsələn, Ramazan ayında (ayın əvvəlinə, sonuna və yaxud qədr gecəsinə məxsus) oxunan «Ramazan ilahiləri» xüsusi əhəmiyyət kəsb edir. Hicri ilinin ilk ayı olan «Mühərrəm ilahiləri» məşhur Kərbəla faciəsinə həsr edilir.*

*İlahilərin bəstələmə üsulları da müxtəlifdir. Bunlar həm kiçik, həm də böyük üsullarla bəstələnirlər. Türkiyədə xorla oxunan İlahilər «cümhur İlahi» adını almışdır. Bektaşi təriqətinə məxsus ilahilər «nəfəs» adı ilə digər ilahilərdən fərqlənir. Nət və Tevşih də Peyğəmbərin vəsfinə həsr edilmiş ilahilərdir. Bu paralelləri göstərməklə biz, dini mahnıların qonşu qohum regionlarda daha geniş bir halda mövcudluğunu və bunların dini-tarixi bağlılığının, əlaqəsinin mümkünluyünü nəzərə çatdırmaq istərdik ki, bu da xüsusi tədqiqat problemi kimi həllini gözləyən vacib məsələlərdən biridir.*

İlahilər Türkiyənin mədəni mühitilə sıx qarşılıqlı əlaqədə olan Krım tatarlarının dini musiqi ənənəsində də geniş yayılmışdır [Tuymova: 2008]. Lakin onlardan fərli olaraq rusiyalı tatarların müasir dini musiqi mədəniyyətində ilahi – musiqili poetik janr kimi öz praktiki fəaliyyətini itirsə də, onun əlamətləri digər dini oxumalarda – münacatlarda ("Allaha yalvarış") davam etdirilir. Janrın transformasiyasını tədqiq edən Q.Sayfullinanın müşahidələrinə görə: "*XX əsrdə münacatların repertuarına ilkin olaraq başqa funksiya və məzmunlu forma və janrlar daxil olur, bu ad altında dini mövzu ilə bağlı müxtəlif musiqili-poetik formalar başa düşülməyə başlayır ... Bunlar Məhəmməd Peyğəmbərin mədhi (mədhiyyə, salavat), "Ramazanın alqışlanması", müqəddəs ayla vidalaşma (Elvidağ) ola bilər...*" [Sayfullina: 2007, s.230]. Bu janrların türkdilli xalqların dini musiqisində uyğun və fərlqi cəhətlərinin müqayisəli tədqiqinə dair Q. Giləmyanovanın araşdırması diqqəti cəlb edir. Onun fikrincə, "*bu janrların inkişafında ümumi amillər arasında onların müasir mədəniyyətdə mahnılara yaxın olmasıdır. Türk müəllifləri ilahilərin mahnılarla uyğunluğunu, onlardan məzmununa, melodiyasına, ritminə, ifa tərzinə və üslubuna görə fərqləndiyini qeyd edirlər.... Tatar mühitində münacatların fəaliyyət tendensiyası da həmçinin, onların mahnı janrına tədricən yaxınlaşmasını göstərir ki, bu da münacatların mövzusunda, həm də melodikasında təzahür edir*" [Giləmyanova: 2024, s.588].

**3. "Əhli-beyt" məzmunlu "Mövlud" oxumaları**

Türkdilli xalqların mədəniyyətində Məhəmməd Peyğəmbərin və "Əhli-beyt"in doğum gününün qeyd edilməsi dini-mənəvi həyatın vacib hadisələrindən biridir. Hər bir regional mühitdə bu əlamətdar hadisə özünəməxsus xüsusiyyəti ilə seçilmişdir. "Mövlud" mərasimlərinin "Əhli-beyt" məzmunlu oxumalarının üslub xüsusiyyətləri Türkiyənin və Rusiyanın türkdilli musiqişünasları tərəfindən müəyyən dərəcədə araşdırılsa da, Azərbaycanda hələ də bu sahədə "boşluqlar" mövcuddur. Bunun da səbəbi izahediləndir. Belə ki, əgər Osmanlı Türkiyəsində "Mövlud" orta əsrlərdən (XVI əsrdə Sultan III Muradın dövründən) icra edilməyə başlamış, digər türkdilli xalqların (Krım və Volqaboyu tatarların və s.) dini mərasim mədəniyyətinə güclü təsir göstərmiş və XIX əsrdən etibarən milli-regional müsəlman bayramı cizgiləri qazanmağa başlamışdır.

"Mövlud"un türkdilli xalqlar arasında xalq mərasim əlaməti daşıyan dini hadisə olduğunu Tatarstan tədqiqatçısı M.İ.Şamsutdinovanın fikirləri təsdiq edir: "*Müsəlman – tatarlarda "Mövlud-bayramı" özündə dərin etnik birlik möhrünü daşıyır və milli mədəniyyətin (dil, melos, qədim janrların təkamülü və s.) ayrılmaz elementi kimi çıxış edir"* [M.Şamsutdinova: 2001, s.194-195].

Bununla belə, türkdilli xalqların "Mövlud" mərasimlərinin icrası zamanı müəyyən uyğun və fərqli cəhətlər müşahidə olunur. Ümumilik, ilk növbədə, bütün regional bölgələrdə böyük türk mütəfəkkiri və təsəvvüf şairi Süleyman Çələbinin (1351-1422) yazdığı "Mövlud" ("Vesiletü-n-Necat" ) əsərinin oxunmasıdır.

Türk dini musiqisində "Mövlud" "*Məhəmməd Peyğəmbərin doğumunu, peyğəmbərliyini, meracını, möcüzələrini, vəfatını əks etdirən məsnəvi janrındakı şeirlərin improvizasiyalı tərzdə oxunmasından meydana gəlmiş bir cami musiqisi formasıdır... İslam dünyasında bir çox şairlər Mövlud yazsalar da, yalnız S.Çələbinin "Vesiletü-n-Necat" əsəri bunların hamısını unutdurmuş və bu günədək öz mövqeyini qoruyub saxlamışdır*" [Y.Demirtaş: 2009, s.218]. Bu ölməz əsərin böyük bir hissəsi nəinki Türkiyədə, o cümlədən, digər türkdilli regionlarda da "Mövlud" mərasimlərinin icrası zamanı avazla oxunun ümumi mənbə kimi istifadə edilir.

Tədqiqatçılar tərəfindən müxtəlif əlyazma mənbələrinə əsaslanaraq beyt sayı 600-dən 2500-dək dəyişməsi ehtimal olunan "Mövlud"un bəhrlərinin ifası *mövludxanın* (çox vaxt

bir neçə *mövludxanın* növbə ilə bir-birini əvəz etməsi müşahidə olunur) bacarığından və zövqündən asılı olaraq müxtəlif makam keçidlərlə oxunur. Bu zaman *Səba, Hicaz, Rast, Hüzzam* və s. muğam avazlarından istifadə edilir.

S.Çələbinin "Mövlud" kitabı digər türkdilli xalqların – Volqaboyu və Krım tatarlarının dini-mahnı yaradıcılığında da özünə möhkəm yer tutmuşdur. Belə ki, XV-XVI əsrlərdə Qazan xanı və Osmanlılar arasında fəal dövlət və mədəni əlaqələrin genişlənməsi kitabın tatarlar arasında yayılmasına səbəb olmuşdur. Bu fakt hər iki bölgənin tədqiqatçıları - Q.R.Tuymova, A.B. Sofiyskaya, M.İ. Şamsutdinova və başqaları tərəfindən təsdiqlənir ki, bunu da müasir mərhələdə poemanın ifasında sabit prinsiplərin qorunub saxlanılması sübut edir.

M.Şamsutdinova "Mövlud" oxumalarının melodiyasının son dərəcə çox olduğunu və milli-regional xüsusiyyətlərin parlaq əks olunduğunu bildirir. Həmçinin, oxumalarda adi nitq və oxuma arasında orta mövqe tutan danışıq üslubunun üstünlüyünü qədim əlamət kimi xarakterizə edir [M.Şamsutdinova: 2001, səh.177].

"Mövlud" oxumalarında söz və musiqi bir-birilə sıx bağlıdır. Belə ki, mətnin ritmik əsası (əruz) melodiyanın quruluşuna əhəmiyyətli dərəcədə təsir göstərir və onu özünə tabe edir. Bu cəhət "Mövlud"un bütün türkdilli regionlarda ifasının ümumi, birləşdirici əlaməti kimi çıxış edir. İstər Türkiyədə, istər Volqaboyu və Krım tatarları arasında, istərsə də Azərbaycanda oxunan Mövlud mətnlərinin əsaslandığı əruz melodiyaların musiqili kompozisiya ququruluşunu, dəqiq ritmik şəklini müəyyənləşdirir.

Bununla bağlı Krım tatar Mövludlarının struktur təhlilini aparan Quzel Tuymova yazır: "*Mövlud" melodiyalarının metroritmik təşkili S.Çələbinin məsnəvisinin yazıldığı poetik mətnin metroritmik prinsiplərini - rəməl-i-müsəmman -i-məhzuf -u əks etdirir. "Mövlud" mətnləri yerli xüsusiyyətlərdən asılı olaraq müxtəlif melodiyalarla səslənmələrinə baxmayaraq, onların metroritmik əsası hər zaman dəyişməz qalır və rəməlin qısaldılmış formulunu təmsil edir"* [Q.Tuymova: 2008, s.16]. Məlum olduğu kimi, rəməl bəhrinin bu formulunun: *fa-ilatun - fa-ilatun - fa-ilun* - quruluşlu ritminə əsaslanan şeirlərin poetik strukturu melodiyaların sadəliyinə təsir edir.

"Mövlud" havalarının regional özünəməxsusluğunu göstərən başlıca cəhət, şübhəsiz ki, onların ladintonasiya əsasıdır. Burada müxtəliflik özünü parlaq nümayiş etdirir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, Türkiyədə makam, Volqaboyu tatarların ənənəsində isə pentatonika milli koloriti müəyyənləşdirir.

Krım tatarlarının "Mövlud" oxumalarının ladintonasiya təhlilini aparan Q.Tuymovanın gəldiyi nəticəyə görə, oxumalarında üç ladın – şur, mahur, şüştər - istifadə olunduğu müəyyənləşir [Q.Tuymova: 2008, s.17].

Bu baxımdan Azərbaycanda "Mövlud" oxumalarının lad əsası (şur, segah, rast) ilə uyğunluq özünü göstərir. Belə bir oxşarlığın yaranma səbəbi həm vahid bədii mətnin istifadə edilməsi, həm də vahid musiqi sisteminin fəaliyyəti ilə izah edilir. Belə ki, Azərbaycanın Qəbələ, Şəki bölgələrində oxunan "Mövlud"larda həm yerli, həm də türk üslubunun təsirinin artmasına Azərbaycan və Türkiyə arasında dini-mədəni əlaqələrin genişlənməsinin böyük rolu olmuşdur.

Onu da qeyd edək ki, Azərbaycanda "Əhli-beyt" sevgisini nümayiş etdirən "Mövlüd" mərasimləri Türkiyədən fərqli olaraq, xeyli gec icra olunmağa başlamışdır. Bu haqda maraqlı məlumatı bizə Üzeyir Hacıbəylinin 1916-cı il, 5 yanvar tarixli "Yeni İqbal" qəzetinin 200-cü sayında dərc edildiyi "Mövlidi-nəbi bayramı" adlı məqaləsi verir. Məqalədə deyilir: "*Mövlidi-nəbi bayramı təzə-təzə dəbə düşən bayramdır. Qurban bayramı, orucluq bayramı, Novruz bayramı - bu bayramlar hər kəsə müəyyən və aşkar bir surətdə tanınan olduğu halda, mövlud bayramı hələ bir o qədər məşhur olmuyubdur. Zatən mövlidi-nəbi bayramının dəbə düşməsi aramızda qəzetlər çıxan günlərdən biridir*" [Hacıbəyli: 2010, s.99]. Ü.Hacıbəyliyə görə, bu mərasimlərin Azərbaycanda keçirilməsinə Türkiyə qəzetlərinin ölkədə yayılması və bu qəzetlərdə əksini tapan mövlud mərasimləri haqda məlumatların verilməsi mühüm rol oynamışdır. Xalqın dini əqidəsinin mətin və möhkəm olduğunu bildirən Üzeyir bəy daha sonra yazır: *"...biz öz peyğmbərimizə olan hörmət, əzəmət və məhhəbbəti qəlbimizdə saxlamaqla bərabər, bir də hamılıqla bərabərdə izhar və ibraz etməliyik. Bu nümayiş isə günlərimizin ən əzizi olan mövlud günlərində ic-*

*ra edilməlidir ki, o gün peyğəmbəri- zişanımız anadan olubdur*" [Hacıbəyli:2010, s. 99].

Dahi Üzeyir bəyin XX əsrin əvvəllərində verdiyi tövsiyələri yalnız əsrin sonlarında yerinə yetirildi. Məhz bu zaman "Əhli-beyt" məzmunlu musiqili-poetik janrların təşəkkülünə şərait yarandı. Buna sosiomədəni həyatda islama "qayıdış", bir çox islam ənənələrinin dirçəlməsi, dini tədbir və mərasimlərin açıq şəkildə icrası, dini təhsil alanlar üçün geniş imkanların açılması güclü təkan verdi.

Müasir dövrdə Azərbaycanda "Mövlud" mərasim ənənələri respublikanın əsasən islamın sünni məzhəbinə aid olan şimal-qərb bölgəsinin (Şəki, Zaqatala, Qax, Qəbələ, Ağdaş) əhalisi tərəfindən qorunub saxlanılır.Lakin Azərbaycanın digər bölgələrində, xüsusən şiə (cəfəri) məzhəbinə mənsub müsəlman əhali Məhəmməd Peyğəmbərlə yanaşı, "Əhli-beyt"in - Həzrət Əlinin, Həzrət Fatimeyi-Zəhranın, İmam Hüseynin və İmam Mehdinin mövludunu da qeyd edirlər ki, bunu da son zamanlar ifa edilən dini mahnıların təkcə Mövlud günlərində deyil, həmçinin, müxtəlif konsert salonlarında, kütləvi informasiya vasitələrində səslənməsi təsdiqləyir. Azərbaycanda islam müqəddəslərinin doğum gününə həsr edilən belə dini mahnıların həm sünni, həm də şiələr tərəfindən ifası məzhəblərarası yaxınlaşmanı təmin edən əhəmiyyətli göstərici ola bilər.

Bununla bağlı Azərbaycanda "Əhli-beyt" mahnılarını təbliğ edən çoxsaylı dini musiqi kollektivlərinin, qruplarının fəaliyyət göstərməsi, dərviş toylarının, dini musiqi festivallarının, dini musiqidən ibarət "konsertlər"in təşkili fəallaşmışdır. Belə ki, Azərbaycanda yaranan ilk dini musiqi kollektivindən olan **"***Əhli-beyt" məddahlar qrupunun (yaradıcısı Hacı Yaşardır, ilk dəfə olaraq dərviş toylarında çıxış etmiş, 60-dan artıq dini mahnı bəstələmişdir) ardınca bir sıra musiqi qrupları təşkil edilmişdir. Dini musiqi kollektivlərinin çıxış etdikləri əsas tədbirlər "Əhli-beyt"in - Məhəmməd Peyğəmbərin, İmam Əlinin, Fatimənin mövlud günləri, Ramazan və Qurban bayramları, dərviş toyları və s. dini hadisələrlə bağlı məclislərdir* [Quliyev: 2022, s.169].

Müasir şəraitdə müxtəlif dini, həmçinin, məişət tədbirlərinin fəal iştirakçısına çevrilən belə musiqi kollektivlərinin, çoxsaylı məddah və "Əhli beyt aşıqlərinin" repertuarını məhz Əhli-beyt sevgisini ifadə edən mahnılar təşkil edir.: "Ya Peyğəmbər", "Nuri Məhəmməd", "Əli, Əli, mövla", "İmamım gələcək", "Həzrəti Fatimə", "Necə ləbbeyk deməyim sən təki sultana, Əli", "Fatimə", "Həzrəti Fatimə", "Xanım Zəhra", "RəsulAllah", "İsmin ilə","Mövla gələcək", "Yoluna canlar fəda", "Peyğəmbərin mövludu" və s. bu kimi dini məzmunlu mahnılar nəinki dini məclislərdə, həmçinin, konsert salonlarında, kütləvi informasiya vasitələrində də səslənir.

Beləliklə, öz başlanğıcını orta əsr müsəlman mədəniyyətindən alan "Əhli-beyt" məzmunlu "Mövlud" oxumaları türkdilli xalqların dini-mahnı ənənəsində uyğun və fərqli cəhətləri ilə öz inkişafını davam etdirir. Biz türkdilli xalqların dini mədəniyyətundə istifadə edilən "Əhli-beyt" məzmunlu musiqili-poetik janrlar arasında mövcud olan ümumi cəhətləri göstərməklə kifayətlənməyib problemin tədqiqinin davam etdirilməsini, oxumaların dramaturgiyası, kompozisiya quruluşu və s. aspektlərinin ətraflı araşdırılması ilə qohum xalqlar arasında mədəni-tarixi prosesləri və qarşılıqlı əlaqələri daha dərindən anlamağa kömək edən yeni-yeni maraqlı hadisələri aşkarlamağı məqsədəuyğun hesab edirik.

## Nəticə / *Conclusion*

Mənəvi ehtiyacdan doğan və öz başlanğıcını orta əsrlər müsəlman şərq mədəniyyətindən alan musiqili-poetik janrların bütün dövrlərdə türkdilli xalqların mədəni mühitində fəaliyyətini və inkişaf etdiyini görürük. Hər bir etno-regional mühitdə özünəməxsusluğunu qoruyub saxlayan "Əhli-beyt" dini mahnı ənənəsi vahid ümummüsəlman mədəni irsin daşıyıcısı kimi fəaliyyətini bu gün də davam etdirir.

Beləliklə, türkdilli xalqların dini musiqili-poetik mahnı ənənələrinin müqayisəli öyrənilməsi onların dini-mədəni əlaqələrinin dərindən dərk edilməsinə təkan verərək daha önəmli məsələlərin işıqlandırılmasına yol açır. Belə ki, hər bir mədəni mühitdə islamın müqəddəs obrazla-

rına həsr edilən dini mahnıların poetik mətnlərinin, məzmununun janr oxşarlığına baxmayaraq, onların musiqi dilində, ifadə vasitələrində təzahür edən fərqlilik mənsub olduğu milli musiqi ənənəsinin, onun özünəməxsus xüsusiyyətlərinin göstəricisi kimi çıxış edir. Bu baxımdan türkdilli xalqların dini-mədəni ənənəsində ***"Əhli beyt" məzmunlu musiqili-poetik janrların*** müqayisəli ***öyrənilməsi etnomusiqişünaslığın aktual problemlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir.***

**Ədəbiyyat / *References***


1. *Arslan Mehmet ve Erdoğan Mehtap. (2009). Kerbelâ Mersiyeleri. Ankara: Grafiker Yay.*
2. Demirci M. (2017). *Türk din musikisinin 200-ü. Ankara: 320 s.*
3. Demirtaş Y.Türk dini musiqi formaları / İlahiyat Fakültəsi Dergisi 14/1, 2009, s.213-227.
4. *Babayeva Ə.A. Azərbaycan və türk dini matəm oxumaları- mərsiyələrin müqayisəli öyrənilməsinə dair / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XXII beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: 2023, s.130-135.*
5. *Babayeva Ə. A. (2001). Azərbaycanda islam və musiqi. Bakı: Nurlan, 177 s.*
6. *Çağlayan B. (1997). Kerbela Mersiyeleri. Ankara: GÜ, Sosial Bilimler Enstitusu.*
7. Köçərli F.Ə. (1978, 1981). Azərbaycan ədəbiyyatı. (iki cilddə) I və II c. Bakı: Elm nəşriyyatı.
8. *Mehmet Yalçin Yılmaz. (2006). Türk Din Musikisinde Mersiyeler ve Mersiyehanlar. İstanbul, 167 s.*
9. *Nuri Özcan.* Ehl-i Beyt Sevgisinin Türk Dinî Mûsikisindeki Yankıları: Mersiye Geleneği / Din və Hayat, *SAYI 23, EKIM, 2014, s.81-84.*
10. Hacıbəyli Ü. Ə. (2010). Nəşrlərdən kənara qoyulmuş, ixtisar və redaktə olunmuş əsərləri. II h., Bakı: Elm, 236 s.
11. Quliyev A. N. Azərbaycanda "Əhli-Beyt" dini mahnı janrı:təşəkkülü və inkişafına dair / "Qloballaşan dünyada musiqi ənənələri" II Beynəlxalq elmi konfransın materialları. Bakı: 2022, s. 169.
12. Гилемьянова Г.Г. Илахи и мунаджат в духовной музыкально-поэтической культуре турок и татар: к вопросу общности традиций / *Polylinguality and Transcultural Practices, 2024, 21 (3), с.583–590.*
13. Сайфуллина Г.Р. *Татарский мунаджат: трансформация жанра / Музыка народов мира. Проблемы изучения. Вып. 2.М.:МГК, 2017. С. 219–234.*
14. Софийская А.Б. Музыкальные аспекты религиозных праздников татар-мусульман Поволжья: дис. ... канд. искусствоведения. Казань: 2007.
15. Туймова Г.Р. *Религиозные музыкально-поэтические жанры в традиционной музыке крымских татар: мавлид и иляхи. Дис. ... канд. иск. Казань: 2008. 209 с.*
16. Шамсутдинова М. И. (2001). Маулид-байрам у мусульман Среднего Поволжья. Религиоведение, философская антропология, философия культуры. Kazan: 2001, 290 s. .